

> "Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 1 oktyabr 2025-ci il №70 (2979) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## İqtisadi sahədə İtaliya bizim üçün birinci ticarət tərəfdaşıdır və ildən-ilə ticarət dövriyyəmiz artmaqdadır

*İtaliya Respublikasının Prezidenti Sercio Mattarella sentyabrın 30-da Azərbaycan Respublikasına rəsmi səfər edib.*

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

İtaliya Prezidenti Sercio Mattarellanı hava limanında Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Sentyabrın 30-da Azərbaycan Respublikasına rəsmi səfərə gələn İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda İtaliya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.



Azərbaycan Prezidenti İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarellanı qarşılayıb.

Fəxri qarovul dəstəsinin rəisi İtaliya Prezidentinə raport verib.

İtaliya Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səslənib.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarellanın qarşısından keçib.

Azərbaycan və İtaliya prezidentləri rəsmi foto çəkdiriblər.

* * *

Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə təkbətək görüşü keçirilib.

* * *

Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə geniş tərkibdə görüşü olub.

Görüşdə çıxış edən Prezident **İlham Əliyev** deyib:

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Sizi səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Sizin səfərinizə biz çox böyük əhəmiyyət veririk. Bu, İtaliya ilə Azərbaycan arasındakı dostluq, tərəfdaşlıq əlaqələrinin təzahürüdür.

Biz Sizinlə tez-tez görüşürük Romada və eyni zamanda, bu, Sizin Azərbaycana ikinci rəsmi səfərinizdir. Keçən il Sizinlə görüş zamanı mən Sizi Azərbaycana dəvət etmişəm və təşəkkür edirəm ki, dəvətimi qəbul etmisiniz. Bu gün İtaliya-Azərbaycan əlaqələrinin inkişafı göz qabağındadır.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan müdafiə naziri Pakistan tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Sahir Şamşad Mirzaya başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Pakistanın Bəlucistan əyalətinin Kvetta şəhərində xaincəsinə törədilmiş terror aktı nəticəsində qardaş Pakistan İslam Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun şəhid olması və yaralanması barədə xəbər məni hədsiz kədərləndirdi.

Həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verir və Allahdan səbir diləyirik. Yaralananların tezliklə sağalmalarını arzu edirik.

Allah rəhmət eləsin".

## Döyüşlə açılan səhər və tarixi Zəfər

Dövlətlə, dövlətçiliklə bağlı olan hadisələr yaşadıldıqca tarixləşir. Belə tarixlər zaman keçdikcə dövlətçiliyə işıq salıbsa, sevgilərlə, mahiyyəti dövlətçiliyin işığına kölgə salmaq olubsa, nifrətlə xatırlanır. Sevgi kimi nifrətin də yaşadılması dövlətçiliyə sədaqətdir...

27 sentyabr da tarixdi...

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri yeni ərazilər işğal etmək niyyəti ilə Azərbaycanın ərazilərinə genişmiqyaslı hücuma keçdi. Azərbaycan Ordusunun bölmələri bu təxribatın qarşısını qətiyyətlə aldı, Ali Baş Komandanın döyüş əmri ilə əks-hücuma keçdi; İkinci Qarabağ müharibəsi başladı...

"N" hərbi hissəsində əsgərlər 2020-ci ilin payızında döyüşlə açılan səhərdən danışırlar, döyüşlərdən danışırlar. Disput Azərbaycan əsgərinin döyüş hazırlığının, qətiyyətinin, Vətən sevgisinin, qürurunun, ... ifadəsidi. Əsgərlər Anım Günü kimi qeyd edilən 27 sentyabrın həm də Qürur Günü olduğunu bildirirlər. Əsgər Kənan Quliyev deyir ki, Anım Günü müharibə tariximizə böyük ehtirama görə təsis edilib. Anım Günü dövlətçiliyin günüdür. Həmin gün döyüşlər də ehtiramla anılır, qəhrəmanlar da, şəhidlər də ehtiramla anılır, müharibədə sağlamlıqlarını itirənlər də...

Disputdan əvvəl polkovnik-leytenant Rauf Zeynalov demişdi ki, əsgərlərimiz də bu ədalətli müharibəni Azərbaycan dövlətçiliyinin rəşadətli müharibəsi adlandırır, hər biri bu adlandırmanı hərbi xidmətin mahiyyəti bilir. Belə düşüncə Azərbaycan əsgərinin mənəvi hazırlığının ifadəsi olmaqla milli-mənəvi dəyərlərin yaşadılmasıdır...

Disputa giriş kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dediyi bir fikri xatırladıram: "Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və düşməni torpaqlarımızdan qovduq".

**(Ardı 4-cü səhifədə)**

## Tərəqqipərvər ziyalı - polkovnik Əbülfət ağa Şahtaxtinski

Əbülfət ağa Nəcəfqulu ağa oğlu 1858-ci ilin oktyabr 17-də Şərur-Dərələyəz qəzasının Şahtaxtı kəndində anadan olub. O, XIX əsrin görkəmli jurnalisti İsa Sultan Şahtaxtinskinin (1851-1894) kiçik qardaşı idi. Ataları Nəcəfqulu ağa dövrünün ən zəngin zadəganlarından biri olub və o da Rusiya İmperiya ordusunda hərbçi kimi xidmət edib.

Əbülfət ağanın babası Hacı İsa Sultan, həmçinin ulu babaları İmamqulu Sultan, Şah Sultan və digərləri də dövrünün tanınmış hərbçiləri olublar. Azərbaycanın ictimai-siyasi və mədəni həyatında mühüm xidmətləri olmuş nüfuzlu Şahtaxtinskilər nəsli Azərbaycan tarixinə Məhəmməd ağa Şahtaxtinski, Behbud ağa Şahtaxtinski, İsa Sultan Şahtaxtinski, Həmid bəy Şahtaxtinski kimi görkəmli şəxsiyyətlər bəxş edib.

**(Ardı 6-cı səhifədə)**

## Ötən həftə 135 mina və 1661 partlamamış hərbi sursat zərərsizləşdirilib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən sentyabrın 22-28-də icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 100, tankəleyhinə 35 mina və 1661 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 1225,1 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## Azərbaycan Ordusunun möhkəm dayaqlarından biri şəxsi heyətin sağlam həyat tərzidir



Fiziki baxımdan hazırlıqlı hərbi qulluqçular döyüş meydanında daha çevik, dayanıqlı və sürətlə qərarvermə qabiliyyətinə malik olurlar. Bu xüsusiyyətlər çətin relyefli, dağlıq və ekstremal şəraitdə keçirilən əməliyyatlarda həyati əhəmiyyət kəsb edir. İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan əsgərinin göstərdiyi qəhrəmanlıq, çeviklik və dözümlülük məhz bu sahəyə ayrılan diqqətin və davamlı hazırlığın bariz göstəricisidir. Bu cür fiziki hazırlıq yalnız müharibə zamanı deyil, sülh dövründə də hərbi nizam-intizamın formalaşmasına mühüm töhfə verir.

Azərbaycan Ordusunda fiziki hazırlıq məşğələləri hərbi qulluqçuların gündəlik həyat fəaliyyətinin əsas və ayrılmaz hissəsidir. Fiziki hazırlıq məşğələləri yalnız fiziki gücün artırılmasına yönəlmir, həmçinin əsgərlərin iradəsini də möhkəmləndirir.

**(Ardı 5-ci səhifədə)**

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:
# İqtisadi sahədə İtaliya bizim üçün birinci ticarət tərəfdaşıdır və ildən-ilə ticarət dövriyyəmiz artmaqdadır





(Əvvəli 1-ci səhifədə)

Biz artıq bir neçə vacib məsələni müzakirə etmişik. Bizim əməkdaşlığımız çoxşaxəlidir, demək olar ki, bir çox sahələri əhatə edir, energetikadan başlamış sənaye istehsalına qədər. Hazırda təhsil sektorunu da əhatə edən əməkdaşlıq, doğrudan da, strateji əhəmiyyət daşıyır və beş il bundan əvvəl imzalanmış Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə deyə bilərəm ki, tam icra edilir.

Bizim əlaqələrimiz, eyni zamanda, yerləşdiyimiz bölgənin inkişafı üçün də önəmlidir, bizim Avropa İttifaqı ilə əlaqələrimizə müsbət təsir göstərir. İtaliya həmişə bizim Avropa İttifaqı ilə daha sıx münasibətlərin qurulmasına öz dəstəyini vermişdir və biz buna görə Sizə minnətdarıq.

Təbii ki, energetika sahəsində bir çox əhəmiyyətli nəticələr var. Bu barədə biz artıq danışmışıq. İndi geniş tərkibdə bu müzakirəni davam etdirəcəyik. Nəticələrlə bağlı, əlbəttə ki, bir-birimizi haqlı olaraq təbrik edə bilərik. Amma bizim planlarımız daha genişdir. Həm İtaliya ilə ikitərəfli formatda, həm Avropa İttifaqı ilə bütövlükdə energetika sahəsində yeni layihələrin həyata keçirilməsi məsələləri çox vacibdir və biz bu məsələlər üzərində uğurla çalışırıq.



Sabah da çox gözəl tədbir olacaq - biz İtaliya-Azərbaycan Universitetinin yeni binasının açılışında birlikdə iştirak edəcəyik. Bu, əslində, bizim bir dostluq layihəmizdir və layihənin başlamasından icrasına qədər cəmi üç il vaxt keçib. 2022-ci ildə mənim tərəfimdən müvafiq Sərəncam verilmişdir və artıq yüzlərlə tələbə təhsilə cəlb edilib. Əlbəttə ki, onlar İtaliya-Azərbaycan dostluğunun elçiləri olacaqlar. Həm gözəl təhsil alacaq, həm də ki, bizim aramızdakı dostluğu daha da möhkəmləndirəcəklər.

Bir daha Sizi salamlayıram



və bir daha "Xoş gəlmisiniz!" deyirəm.

* * *

İtaliya Prezidenti **Sercio Mattarella** çıxış edərək deyib:

- Cənab Prezident, bizi qəbul etdiyinizə görə Sizə olduqca minnətdaram. Elə indicə, əvvəlki görüşümüzdə dedim ki, Bakıda yenidən olmağımdan çox məmnunam. Siz də qeyd etdiyiniz kimi, 7 il öncə etdiyim səfəri xatırlayıram. Həmin səfər çərçivəsində TAP-a böyük dəstək verməyə müvəffəq olduq. Buna görə də Sizə minnətdaram.

Eyni zamanda, Romaya etdiyiniz çox mühüm səfərləri mən xatırlayıram. Sizinlə apardığımız söhbətlər hər zaman dostluq və əməkdaşlığın rəmzi olub. Öz növbəmdə bildirdim ki, ölkələrimiz arasında strateji əməkdaşlığa tam dəstək veririk. Əməkdaşlığımız yüksələn xətlə artır, genişlənir və müxtəlif sahələri əhatə edir. Sabahkı tədbirə gəldikdə, Sizinlə birgə İtaliya-Azərbaycan Universitetinin tələbə şəhərciyinin açılış mərasimində iştirak etmək üçün dəvətinizə görə təşəkkür edirəm.

Tərəfdaşlığımız iqtisadi sahələrlə, çox vacib enerji və sənaye sektorları ilə məhdudlaşmır. O, həmçinin mədəniyyət, gənclərimiz üçün təhsil sahələrini əhatə edir. Bu məqam işbirliyimizin böyüklüyünü, onun möhkəmliyini göstərir.

Dəvətə görə təşəkkürümü bildirirəm və düşünürəm ki, bununla əməkdaşlığımız genişlənəcək, eyni zamanda, Sizin Avropa İttifaqı ilə münasibətlərinizə töhfə olacaq.

* * *

İtaliya Prezidenti Sercio Mattarella COP29-un ölkəmizdə yüksək səviyyədə keçirildiyini vurğulayaraq, həmin tədbirdə qəbul edilmiş qərarların əhəmiyyətinə toxunub. Qonaq, eyni zamanda, Vaşinqtonda Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə bağlı əldə olunmuş nəticələr münasibətilə dövlətimizin başçısını təbrik edib.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirib.

* * *

Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın şərəfinə rəsmi ziyafət verilib.

* * *

Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikasının Prezidenti Sercio Mattarella mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edib.

**Prezident İlham Əliyevin bəyanatı**

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Bir daha sizi səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz.

İtaliya Prezidenti cənab Mattarella Azərbaycanda ikinci dəfədir. Birinci rəsmi səfər 7 il bundan əvvəl baş vermişdir. Bugünkü səfər onu göstərir ki, İtaliya-Azərbaycan əlaqələri çox uğurla inkişaf edir və biz əsl strateji tərəfdaşlarıq.

Bizim görüşlərimiz tez-tez baş verir. Keçən il mən Prezident Mattarellanın qonağı idim və görüş zamanı onu Azərbaycana yenidən rəsmi səfərə dəvət etdim. Şadam ki, o, mənim dəvətimi qəbul edib və bu gün bizimlə birlikdədir.

Bizim aramızda iki strateji tərəfdaşlıq sənədi var. Birinci sənəd 2015-ci ildə imzalanmışdır. İkinci sənəd - Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə isə 5 il bundan əvvəl imzalanmışdır. Bu illər ərzində münasibətlərimiz çox sürətlə və müxtəlif istiqamətlər üzrə inkişaf edib. Siyasi əlaqələr ən yüksək səviyyədədir. Qeyd etdiyim kimi, biz tez-tez görüşürük. İqtisadi sahədə İtaliya bizim üçün birinci ticarət tərəfdaşıdır və ildən-ilə ticarət dövriyyəmiz artmaqdadır. Energetika sahəsində bir çox önəmli layihələr icra edilmişdir. Xüsusilə Azərbaycan neftini və qazını İtaliyaya ixrac etməklə biz dünya bazarlarına geniş həcmdə öz təbii resurslarımızı göndərə bilmişik. Eyni zamanda, bir çox ölkələrin enerji təhlükəsizliyinə də öz töhfəmizi vermişik.

Bu gün Prezident Mattarella



ilə söhbət əsnasında onun keçən səfərini xatırladıq. O vaxt TAP layihəsinin icrası məsələsi gündəlikdə idi. Müxtəlif problemli məqamlar mövcud idi və Prezident Mattarellanın səfərdən sonra şəxsən bu məsələyə müdaxilə etməsi, bu məsələnin tənzimlənməsi imkan verdi ki, TAP layihəsi uğurla icra edildi. 2020-ci ildən başlayaraq bu layihə vasitəsilə İtaliyaya Azərbaycan qazı ixrac edilir. Bu gün Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan 14 ölkəyə təbii qazı ixrac edir. İldən-ilə bizim əhatə dairəmiz artır və bu gün boru kəmərləri ilə ixrac edilən təbii qazın coğrafi əhatəsinə görə Azərbaycan dünyada birinci yerdədir. Azərbaycan nefti İtaliyanın neft balansında birinci yerdə, Azərbaycan qazı isə ikinci yerdədir. Yəni, bu əməkdaşlıq həm güclü tərəfdaşlıqdan xəbər verir, həm də biz uzun illər etibarlı tərəfdaşlar kimi bir-birimizi dəstəkləmişik. Əgər bu səmimi münasibətlər olmasaydı, qarşılıqlı inam olmasaydı, bu layihələrin həyata keçirilməsi mümkün olmazdı.

Mən Prezident Mattarellaya bu gün məlumat verdim ki, biz hazırda Avropa İttifaqı ilə elektrik enerjisinin ixracı üzrə işləyirik. Elektrik xətlərinin çəkilməsi ilə bağlı texniki-iqtisadi əsaslandırma hazırlanmaqdadır. Yəqin ki, yaxın vaxtlarda hazır olacaq. Beləliklə, TAP-ın və Cənub Qaz Dəhlizinin açdığı yol bu gün daha böyük layihələrə yol açır. Elektrik enerjisi, o cümlədən Xəzərin dibi ilə Orta Asiyadan Azərbaycana və ondan sonra Avropa məkanına ötürüləcək elektrik enerjisi bizim əməkdaşlığımızın həcmini daha da artıracaq.

Keçən dəfə Prezident Mattarella Azərbaycanda səfərdə olanda biz birlikdə Sumqayıtda İtaliya şirkətləri tərəfindən inşa edilmiş böyük bir sənaye müəssisəsinin açılışında iştirak etdik. Bu səfər zamanı isə sabah İtaliya-Azərbaycan Universitetinin açılışını qeyd edəcəyik. Yəni, bu dinamika, bu əməkdaşlıq çərçivələrinin genişləndirilməsi ilk növbədə bizim səmimi münasibətlərimizdən xəbər verir. Yəni, energetika, sənaye sahəsindəki əməkdaşlıq humanitar sahədəki əməkdaşlığa da yol açdı.

(Ardı 3-cü səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# İqtisadi sahədə İtaliya bizim üçün birinci ticarət tərəfdaşıdır və ildən-ilə ticarət dövriyyəmiz artmaqdadır

(Əvvəli 2-ci səhifədə)

Artıq İtaliya-Azərbaycan Universitetində yüzlərlə tələbə oxuyur və bu, bizim üçün yeni bir təhsil ocağı olacaq. Burada təhsil alan və alacaq tələbələr həm yüksək biliklərə malik olacaqlar, eyni zamanda, təbii olaraq İtaliyanın Azərbaycandakı, Azərbaycanın İtaliyadakı elçilərinə çevriləcəklər. Yəni, bu, bizim dostluğumuzu daha da gücləndirəcək.

Bu gün danışıqlar zamanı biz, həmçinin Avropa İttifaqı-Azərbaycan əlaqələri haqqında danışdıq. İtaliya hər zaman Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin inkişafına dəstək vermişdir, bu gün də biz bunu hiss edirik və son vaxtlar Avropa İttifaqı-Azərbaycan əlaqələrində də müsbətə doğru addımlar atılır. Bu da bizi təbii olaraq məmnun edir.

Bir sözlə, bizim strateji tərəfdaşlığımız həm rəsmi sənədlərdə, həm həyatda, praktik işlərdə özünü büruzə verir. Hesab edirəm ki, bir-birindən uzaqda yerləşən ölkələr arasındakı münasibətlərin qurulması bizim timsalımızda bir örnək ola bilər.

Hörmətli cənab Prezident, bir daha Azərbaycana xoş gəlmisiniz.

* * *

Sonra İtaliya Prezidenti bəyanatla çıxış edib.

### Prezident Sercio Mattarellanın bəyanatı

- Mən cənab Prezident İlham Əliyevə Azərbaycana yenidən səfər etmək üçün dəvətinə görə minnətdaram. Mənə və nümayəndə heyətimə göstərilmiş qonaqpərvərliyə görə də minnətdaram. Aramızda böyük dostluq, qarşılıqlı, tam şəkildə təşəkkül tapmış anlaşma var və İtaliya-Azərbaycan arasında münasibətlər inkişaf edir. Çox sağ olun ki, Siz mənə yeddi il əvvəl etdiyim səfərimi bir daha xatırlatdınız. Bu da əslində, çox böyük rəmzi xarakter daşıdı və cənab Prezident, təşəkkür edirəm ki, bu dəfə də məni ölkənizə dəvət etdiniz, səfərə gəldim. Əlbəttə ki, biz sabah İtaliya-Azərbaycan Universitetinin tələbələr kampusunun açılışını edəcəyik. Bu da o deməkdir ki, bir tərəfdən İtaliya universitetləri, digər tərəfdən Azərbaycan universitetləri əməkdaşlıq edəcəklər.

Cənab Prezident mənə bildirdi ki, yeddi il öncə biz böyük bir sənaye obyektinin açılışında olduq. Onu da qeyd etdi ki, bunun çox böyük rəmzi əhəmiyyəti var. Bu, artıq bizim enerji, sənaye əməkdaşlığımızdan sabaha açılan yeni bir yol oldu və İtaliya ilə Azərbaycan artıq mədəniyyət, humanitar və təhsil sahələrində əməkdaşlığa başladılar. Bu, əslində strateji tərəfdaşlığımızın və 10 il əvvəl imzalanmış sazişdə qeyd olunanların tam, səmərəli şəkildə həyata keçirilməsi deməkdir. Bu, bizim ölkələrimizin münasibətlərini inkişaf etdirir. Bu, nəinki sənaye və enerji sahələrində, həmçinin mədəniyyət sahəsində də əməkdaşlıqdan xəbər verir.

Cənab Prezident burada qeyd etdi ki, sabah açılışını edəcəyimiz universitetdə təhsil alacaq çoxsaylı tələbələr ölkələrimiz arasındakı dostluğu daha da gücləndirəcəklər. Əlbəttə ki, bu münasibətlərə gəldikdə, ölkələrimiz arasında əlaqələr çox yaxşıdır və gördüyünüz kimi, bir neçə tədbirləri təşkil edirik. İndi növbəti tədbirimiz də olacaq. Təbii ki, bunu biz çox yüksək dəyərləndiririk. Əməkdaşlığımız - Azərbaycanın bizə açıqlığı, bizimlə gördüyü işlər, işbirliyimiz göz qabağındadır.

Mən Prezident Əliyevə bildirdim ki, sizin Avropa İttifaqı ilə əməkdaşlığınıza gəldikdə, İtaliya öz tərəfindən addımlar atacaqdır. Xüsusi qeyd edirəm ki, Azərbaycan geniş şəkildə çox nüfuzlu bir tərəfdaşdır. Avropa İttifaqı bunu görür və təbii ki, bizim sizinlə əməkdaşlığımız bu çərçivədə də çox əhəmiyyətli olacaqdır. Biz əlimizdən gələni edəcəyik ki, bu əlaqələr daha da artsın, inkişaf etsin və hər zaman daha çox yeni sahələri əhatə etsin, ölkələrimizin, xalqlarımızın rifahına xidmət etsin. Bu məqsədlə də mən Bakıya səfərə gəlmişəm. Cənab Prezidentə minnətdaram ki, ikinci dəfədir məni ölkəsinə dəvət edib. Təbii ki, Siz burada, həmçinin İtaliyanın rolunu da qeyd etdiniz. Buna görə mən Sizə təşəkkürümü bildirirəm. Həmçinin qonaqpərvərliyinizə görə minnətdaram.

Qeyd edim ki, sabah İtaliya ilə Azərbaycan arasında mədəniyyət sahəsində, təhsil sahəsində mühüm bir gün olacaq və biz sabah səhər birgə tədbirdə iştirak edəcəyik.

Prezident Əliyevlə atdığımız addım bizim qarşılıqlı anlaşmaya, dostluğa, əməkdaşlığımıza xidmət edən addım olacaqdır. İtaliya bu dostluqdan, əməkdaşlıqdan çox fərəhlənir və bunu ən yüksək səviyyəyə qaldırmaq fikrindədir.

**AZƏRTAC-ın materialları əsasında**

# 2020-2023-cü illərin sentyabrı nə ilə yadda qaldı?

Necə oldu ki, Azərbaycan illərdir işğal altında olan tarixi torpaqlarını cəmi 44 günə azad etdi? Dünya hərb elminə Şuşa əməliyyatı ilə misilsiz bir səhifə necə əlavə olundu? Hərbi dərsliklərə salınmalı şücaətlərlə, ən müasir silah sistemlərinin döyüş şəraitində tətbiqi ilə müharibənin taleyi necə həll olundu?.. Əlbəttə, bu sualların hər birinin çox uzun cavabı var. Lakin qısa şəkildə desək, Azərbaycanın 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarının taleyini nə ATƏT-in Minsk qrupu adlı fəaliyyətsiz qurum, nə də digər beynəlxalq təşkilatlar həll etdi. Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının torpaqlarımızdan qeyd-şərtsiz çıxması ilə bağlı məlum qətnamələrini özü icra etdi. Halbuki Ermənistan dövləti BMT-nin Təhlükəsizlik Şurasının 1992-1993-cü illərdən etibarən qəbul etdiyi qətnamələri adi kağız parçası kimi dəyərləndirərək münaqişənin sülh yolu ilə həllinə doğru bir addım belə atmırdı. Bu vəziyyət Azərbaycanı ordu quruculuğuna daha çox önəm verməyə, xarici siyasət prioritetlərində Qarabağ məsələsi üzərində prinsipiallığını artırmağa, dünyada mövcud olan erməni lobbisini ifşa etməyə sövq etdi. Beləliklə, Ermənistanın havadarlarının və lobbisinin güclü olmasına baxmayaraq, o, siyasi müstəvidə işğalçı imicindən qurtula bilmədi. Hələ 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusu düşmənə gücünü göstərərək onun layiqli cavabını verdi. Bir sıra mühüm strateji yüksəkliklər ordumuzun nəzarətinə keçdi.

2020-ci ilin Tovuz döyüşləri zamanı xalqımızın on minlərlə nümayəndəsinin şəhidlərimizin qisasını almaq, torpaqlarımızı işğaldan azad etmək üçün küçələrə axışması, Ali Baş Komandanın müraciəti, minlərlə gəncin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbələrinə üz tutaraq döyüşə hazır olduğunu göstərməsi ilk psixoloji qələbəmiz idi, desəm, yanılmaram. Həmin günlər dünyanın koronavirus pandemiyası ilə mübarizə aparmasına baxmayaraq, xalqımız həm də görünməz pandemiya ilə, 100 ildir bizə qənim kəsilən məkrli düşmənlə mübarizə aparmaq qərarına gəlmişdi. El arasında deyildiyi kimi: bu xına əvvəlki xınalardan deyildi. 2020-ci ildə başlayan Vətən müharibəsi, o cümlədən 2022-ci ildəki "Qisas" əməliyyatı, 2023-cü ildə uğurla nəticələnən antiterror əməliyyatı da sentyabr ayına təsadüf etdi. Bu ayın hər günü günəşli olmadı, amma əməliyyatların məhz günəşli havada başlaması həm də hərbi strateqlərimizin peşəkarlığının göstəricisi idi. 2020-ci il sentyabrın 27-də 30 ilə yaxın torpaqlarımızı işğal altında saxlayan və daim genişmiqyaslı təxribatlar törədən Ermənistan silahlı qüvvələrinə qarşı əks-hücum əməliyyatına əmr verildi. Nəticədə regionun hərbi və geosiyasi mənzərəsi kökündən dəyişdi. İllərlə Azərbaycan ərazilərində hərbi istehkamlar quran, möhkəmlənən Ermənistan silahlı birləşmələri separatçılara xidmət edən qeyri-qanuni silahlı dəstələr 44 gün ərzində darmadağın edildi.



Kapitulyasiya aktına imza atmağa məcbur edilən Ermənistan silahlı qüvvələrinin ölkə ərazisindən çıxarılması və regionda davamlı sülhün təmin edilməsi artıq diplomatik və antiterror əməliyyatı ilə reallaşdı. 2021-ci ildə Azərbaycan və Ermənistanda sərhəd delimitasiyası üzrə işçi qruplar yaradıldı. Lakin bu proses silahlı toqquşmalarla müşayiət olunurdu. Həmin ilin noyabrında sərhəddə ilk silahlı toqquşmalar baş verdi.

Müharibədən sonra ən qanlı toqquşma isə 2022-ci ilin sentyabrında oldu. İlk təxribat 2022-ci il sentyabrın 2-də baş verdi. Müdafiə Nazirliyi Kəlbəcər istiqamətində mövqelərimizin atəşə tutulduğunu bildirdi. Sonrakı günlərdə də təxribatlar davam etdi. Tarixə "12-14 sentyabr döyüşləri" kimi düşən bu əməliyyatlardan sonra Azərbaycan Ordusu şərti sərhədin əsas strateji yüksəkliklərinə nəzarəti ələ aldı. Düşmənin döyüş mövqeləri məhv edildi. 2023-cü ilin sentyabrında həyata keçirilmiş antiterror əməliyyatı isə erməni separatizminə Azərbaycan torpaqlarında birdəfəlik son qoydu. Bu əməliyyat həm də böyük strateji əhəmiyyət daşıyırdı. Antiterror əməliyyatı zamanı Azərbaycan Ordusu yüksək dəqiqlik və peşəkarlıq nümayiş etdirərək yalnız legitim hərbi obyektləri hədəfə aldı. Bu, ordumuzun müasir silahlara malik olması ilə yanaşı, ölkəmizin yüksək humanist dəyərlərə sadiqliyini nümayiş etdirdi. 2020-ci ildə olduğu kimi, 2023-cü ildə də bu əməliyyat Ermənistanın məqsədli şəkildə həyata keçirdiyi təxribatlara cavab olaraq zəruri idi. Çünki Ermənistan bütün xəbərdarlıqlara baxmayaraq, qanunsuz xunta rejimini qoruyur, onu maliyyələşdirirdi. Bu təkcə maliyyə dəstəyi deyil, həm də hərbi, siyasi və ideoloji sahələri əhatə edirdi. Bu isə birbaşa olaraq Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə və təhlükəsizliyinə qarşı atılmış addım idi. Bir vaxtlar "Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistanın baş naziri Nikol Paşinyanın separatçı lider Samvel Şahramanyanı "rəhbər" seçilməsi münasibətilə təbrik etməsi isə bütün əndazələri aşırdı. 2023-cü ilin sentyabrında Qarabağ iqtisadi rayonundakı Ermənistan silahlı qüvvələrinin bölmələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri genişmiqyaslı təxribatlara başladı. Əhmədbəyli-Füzuli-Şuşa yoluna ermənilər tərəfindən basdırılmış minaların partlaması nəticəsində mülki şəxslər və hərbçilər şəhid oldular. Ordumuzun bölmələri atəşə tutuldu, nəticədə daha iki hərbi qulluqçumuz yaralandı. Azərbaycan Ordusu düşmənin döyüş mövqelərini gücləndirməsini və yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsini müşahidə edərək dərhal cavab tədbirlərinə başladı. Üçtərəfli Bəyanatın tələblərinin pozulması və separatçıların təxribatlarının davam etməsi antiterror əməliyyatını qaçılmaz etdi. Cəmi 23 saat 43 dəqiqə ərzində erməni separatçıları ağ bayraq qaldırmağa məcbur oldular. Rusiya sülhməramlıları vasitəsilə sülh razılaşması əldə olundu. 2023-cü il sentyabrın 20-də saat 13:00-da antiterror əməliyyatı dayandırıldı. Razılaşmaya əsasən, Ermənistan silahlı qüvvələrinin birləşmələri və qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoymalı, döyüş mövqelərindən çıxmalı, tam şəkildə tərk-silah olunmalı idilər. Belə də oldu. Eyni zamanda, Qarabağın erməni əhalisinə Azərbaycanın təklif etdiyi reinteqrasiya şərtləri ilə tanış olmaq və regionda qalıb-qalmamaq barədə müstəqil qərar vermək imkanı yaradıldı. Sentyabrın 28-də separatçı rejimin "rəhbəri" Samvel Şahramanyan qondarma qurumun ləğvi ilə bağlı sənəd imzaladı. Beləliklə, 24 saatdan az müddətdə həyata keçirilən antiterror əməliyyatı nəticəsində Azərbaycan ərazisində qanunsuz yerləşmiş Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tam şəkildə tərk-silah edildi və ölkəni tərk etdi. Bundan başqa, Qarabağ iqtisadi zonasında qeyri-qanuni xunta rejimi ləğv olundu, separatçıların əsas rəhbərləri həbs edildi. Azərbaycan öz dövlət suverenliyini tam bərpa etdi. Azərbaycanın Zəfər tarixi Xankəndi, Xocalı, Ağdərə, Xocavənd və Əsgəran şəhərlərində üçrəngli bayrağımızın dalğalanması, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası ilə başa çatdı. Şəhidlərimizin əziz xatirəsini andığımız, xalqımızın tarixinə şanlı qələbələr ayı kimi düşən sentyabr həm işğalda olan torpaqlarımızın azad edilməsi uğrunda müharibənin başlanması, həm də ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası ilə yadda qaldı. 44 günlük Vətən müharibəsi və ondan sonrakı digər uğurla əməliyyatlar vahid komandanlıq tərəfindən idarə edilən Azərbaycan Ordusunun gücündən xəbər verdi. Bir sözlə, artıq 5 ildir ki, sentyabr ayı xalqımız üçün qələbələrlə zəngin aya çevrilmiş milli iradəmizin dikəldiyi tarix kimi yaddaşımıza həkk olunmuşdur.

**Bəxtiyar ƏLİYEV**
**"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi**

# "Məharət-2025" birgə komanda-qərargah təlimi başa çatıb







Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusunun iştirakı ilə Özbəkistan Respublikasının Daşkənd şəhərində keçirilən "Məharət-2025" kompüter dəstəkli birgə komanda-qərargah təlimi başa çatıb.

Müdafiə Nazirliyi xəbər verir ki, təlim çərçivəsində təşkil olunan mədəni-kütləvi tədbirlər zamanı Azərbaycan hərbi kontingenti Ümummilli Lider Heydər Əliyevin abidə kompleksini, həmçinin Özbəkistan xalqının İkinci Dünya müharibəsində göstərdiyi qəhrəmanlığın və fədakarlığın rəmzi olan "Qələbə Parkı" və "Şan-Şərəf" Dövlət Muzeyini ziyarət ediblər.

Ssenariyə uyğun olaraq, təlim zamanı qanunsuz silahlı birləşmələrin axtarışı, lokallaşdırılması və neytrallaşdırılması məqsədilə xüsusi əməliyyatın planlaşdırılması, eləcə də modelləşdirmə və simulyasiya proqram təminatları üzərindən praktiki fəaliyyətlər icra edilib.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Özbəkistan Respublikası Müdafiə Nazirliyi arasında 2025-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq planı çərçivəsində keçirilən təlimdə qarşıya qoyulan bütün tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

Sonda "Məharət-2025" kompüter dəstəkli birgə komanda-qərargah təlimində fərqlənən hərbi qulluqçular mükafatlandırılıblar.

# Döyüşlə açılan səhər və tarixi Zəfər

(Əvvəli 1-ci səhifədə)

Baş leytenant Nihat Hüseynov ordu hissələrimizin müharibənin ilk günündə Ermənistanın işğal müddətində yaratdığı, illərlə möhkəmləndirdiyi, təkmilləşdirdiyi mühəndis-istehkam sədlərini darmadağın etməsindən, qazanılan ilk qələbələrdən danışır, bildirir ki, sentyabrın 27-də Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri, Ağdərə və Murovdağ istiqamətlərindəki strateji yüksəkliklər işğaldan azad edildi.

Əsgər Tamerlan Nəcəfov deyir ki, mən qəbul imtahanlarına hazırlaşanda bu müharibənin xronikasını da öyrənmişdim. Ordumuzun müharibənin ilk günü qazandığı qələbələri sonrakı döyüşlərə aparan işıq bilmişdim. Bu işıq döyüş əzmi idi, qələbə ruhu idi.

Əsgər Rəfail Hacıyev müharibənin bir döyüşünü xatırladır:

- Bu müharibə təkcə işğalçılıqla deyil, həm də milli-mənəvi dəyərlərin - azərbaycançılığın ermənilikllə apardığı ədalətli müharibə idi. Müharibədə əsgər dostluğu döyüş dostluğu kimi möhkəmlənmişdi, yaralı döyüşçünü döyüşün içindən çıxartmağa tələsən, yaralanmış döyüşçüyə çata-çatda yaralanan döyüşçü şəhid olmuşdu, döyüşçünün son nəfəsi döyüşçünün son nəfəsinə sarılmışdı. Bu kimi hadisələr Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığının nəticəsi idi...

Hərbi hissələrdə disputlar əsgərlərin təqdim edilən mövzuda bildiklərini xatırlaması üçün təşkil olunur; disput tarixləşməli, yaxud tarixləşmiş hadisələrin yaddaşlara köçməsində etibarlı vəsilədir...

Baş leytenant Nihat Hüseynov deyir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş hərbi qulluqçularımıza, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilir.



Əsgər Elməddin Abbasov deyir ki, orta məktəbdə oxuyanda tarix müəllimimiz faktlarla deyirdi ki, Ermənistan müharibə qanunlarına əməl etmədən müharibə aparırdı. İşğal zamanı yaşayış məntəqələri dağıdılırdı, dinc əhali amansızcasına qətlə yetirilirdi. Başlıbel, Ağdaban və Bağanis-Ayrım, Meşəli, Qaradağlı kəndlərində törədilmiş vəhşiliklər erməni faşizminin təsdiqi kimi tarixləşib. Xocalı faciəsi son 100 ilin ən ağır cinayətlərindəndir.

Əsgər Rəfail Hacıyev əsgər yoldaşının fikirlərini gərəkli bir məqamla tamamlayır:

- Bu müharibə elan edilmədən başlasa da, işğalçılıq müharibəsi olduğu müəyyən səviyyələrdə etiraf edilirdi. Lakin beynəlxalq təşkilatlar Ermənistanı işğalçılığa görə, müharibəni başlatdığına görə, mülki əhaliyə qarşı törətdiyi cinayətlərə görə qınamırdı. Beynəlxalq təşkilatlar işğalçı ilə işğala məruz qalmış dövlətlərin mövqelərini fərqləndirmirdi. Buna siyasətdə ikili standartlar deyirlər. Bəzi məqamlarda beynəlxalq təşkilatların işğalçıya rəğbəti də açıq hiss olunurdu.

Əsgər Tamerlan Nəcəfov fikrini belə ifadə edir:

- Buna baxmayaraq Azərbaycan həmişə danışıqların aparılmasının tərəfdarı olub. BMT Təhlükəsizlik Şurasının Ermənistanı silahlı birləşmələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il yerinə yetirilmədi.

- Beynəlxalq təzyiq olmadığına görə, - Rəfail Hacıyev əsgər yoldaşının fikrinə söykək kimi belə deyir.

Əsgər yoldaşının fikrini əsgər İsmayıl Xəlilov belə tamamlayır:

- 2016-cı ilin Aprel döyüşləri, 2020-ci ilin iyul döyüşləri Ermənistana da, onun havadarlarına da ciddi, qətiyyətli hərbi xəbərdarlıq idi.

Baş leytenant Nihat Hüseynov deyir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və dünya ictimaiyyətinə də nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması tapşırılmışdı. Sərəncamdan dərhal sonra Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin layihələri hazırlandı və tikinti işlərinə başlanıldı.

Əsgər Ravid Rəhimov İkinci Qarabağ müharibəsində əhalinin ruhən döyüşənlərin sırasında olmasından, döyüşənlərə yazılan məktublardan da söz açır. Bu məqam disputa yeni bir yönəm verir:

- Bir ananın məktubunu şagird olanda oxusaq da, çoxumuzun yaddaşındadı. Həmin Ana tanımadığı döyüşçüyə yazmışdı ki, oğlum müharibənin ilk günü şəhid oldu. Onun hələ geyinməmiş isti paltarlarını sənə göndərirəm, oğul. Geyin, döyüş, şəhid qardaşını da sıranızda bil. Qələbədən sonra mən adda ananı görməyə gəl, gəl ki, gözlərindən öpüm, bir az təsəlli tapım...

Əsgərin xatırlatması incə bir kövrəklik yaradır. Bu kövrəklik də Vətən müharibəsində döyüşənlərimizə görə, onların döyüşlərinə görə Vətənə sevgidi...

Əsgər Ravid Rəhimov şəhid baş leytenant Səid Rəşidzadəni xatırladır, onun Xocavənd istiqamətində döyüşdə doğulduğu kəndi işğaldan azad edəndə necə sevindiyini sözlə ifadə edə bilməyəcəyini deyir. Səid onda atasına zəng edib, həyəcandan kəlmələri bir-birinə dolaşıb, atası kövrəldiyinə görə, o da kövrəlib. Bir gün sonra Şişqaya yaxınlığında düşmənin iki mövqeyini darmadağın ediblər. Səid Şişqayada erməni bayrağını endirib, layiq olduğu yerə atıb. Azərbaycan bayrağını ucaldanda Səidə snayper gülləsi dəyib. Qəzetinizdə bir məqalə dərc olunmuşdu: "Şəhidlərdi ruhumuzun bayrağı". Bu kəlamı biz də həmişə düşüncələrimizdə yaşadacağıq...

Əsgər Elməddin Abbasov deyir ki, Şuşa döyüşlərini biz də xatırlayırıq, ermənilər də. Biz qürurla xatırlayırıq, ermənilər acı təəssüflə, məğlub ölkə kimi. Biz bu tarixi qələbəni həmişə qürurla xatırlayacağıq.

Əsgər İsmayıl Xəlilov Elməddinin sözünə söykək kimi deyir ki, biz qürurla xatırladıqlarımız, bundan sonra da qürurla xatırlayacaqlarımız Azərbaycan Ordusunun qüdrətidir.

Şuşa döyüşləri haqqında əsgərlərin hamısı nəsə demək istəyir:

- Döyüşçülərimiz Şuşaya sıldırımlarla yaxınlaşmışdılar. Ağır yaralanmış döyüşçünün öz qanı ilə dağın sinəsinə "Qarabağ Azərbaycandır!" yazmağa taqəti çatıb, son nəfəsində yazdığına baxa bilib, üzündə bir qürur donub. Döyüşçülərimiz şəhərdə bəzi yerlərdə güllələrlə, bəzi yerlərdə süngülərlə döyüşüblər, - əsgər Eltac Əsgərli belə deyir...

- Azərbaycan Ordusu noyabrın 8-də Şuşanı işğaldan azad etdi. Noyabrın 10-da üçtərəfli bəyanat imzalandı. Bu sənəd Azərbaycanın qalibiyyət, Ermənistanın məğlubiyyət sənədi oldu. Ermənistan silahlı qüvvələri Ağdamdan, Kəlbəcərdən və Laçından döyüşsüz geri çəkildi. 2023-cü ilin sentyabrında Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror əməliyyatı ilə ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu, - əsgər Rəfail Hacıyevin dedikləri düşüncələrin informativ göyqurşağına dönür...

Əsgər Ravid Rəhimov qəbul imtahanlarına hazırlaşanda yaddaşına köçürdüyü bir faktı xatırladır: 44 günlük Vətən müharibəsindən sonrakı 20 gün ərzində 3 rayon - noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın döyüşsüz Azərbaycana təhvil verildi. 2022-ci avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bununla da üçtərəfli bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşdı.

Baş leytenant Nicat Hüseynov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bir fikrini də xatırladır: "Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torpaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Hətta ən ağır vəziyyətdə olan yaralı əsgərimiz, zabitimiz bilməlidir, əlimizdən gələni edəcəyik ki, onu normal həyata qaytaraq. Biz bu Qələbəyə görə onlara borcluyuq".

...Gün günorta yerindədi. Əsgərlər disputun cazibəsindən ayrılmaq istəmirlər. Bu, Vətənə sevgidi. Bu, Vətən sevgisidi!..

"N" hərbi hissəsinin əsgərlərinin baxışlarında bir qətiyyət var: Güllələrlə açılan səhəri də, döyüşləri də, tarixi Zəfəri də düşüncələrimizdə dövlətə, dövlətçiliyə sədaqətlə yaşadacağıq, bizdən sonra xidmət edəcək əsgərlər də belə yaşadacaqlar!..

Güllələrlə açılan 27 sentyabr səhəri də, döyüşlər də, qazanılan tarixi Zəfər də tariximizdi. Xalqın, dövlətin, dövlətçiliyin tarixini ruh yaşadır...

Əsən yellər uzaqlara tələsir...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Fiziki hazırlıq*

## Azərbaycan Ordusunun möhkəm dayaqlarından biri şəxsi heyətin sağlam həyat tərzidir





(Əvvəli 1-ci səhifədə)

Gizir Təbriz Quliyev hərbi qulluqçu olmaqla yanaşı, gimnastika ilə də fəal məşğul olaraq fiziki hazırlığını yüksək səviyyədə saxlamağa böyük önəm verir. Gimnastika T.Quliyevin çevikliyini, balans və koordinasiya qabiliyyətini artırmaqla yanaşı, onun dözümlülüyünü və fiziki gücünü də möhkəmləndirir. Bu bacarıqlar hərbi qulluqçu üçün həyati əhəmiyyət daşıyır, çünki real döyüş şəraitində çeviklik və yüksək fiziki hazırlıq qələbənin əsas şərtlərindəndir.

T.Quliyevin idman sahəsində fəaliyyəti birlik üzrə keçirilən turnik yarışlarında da öz uğurlu əksini tapıb. İki dəfə qazandığı nailiyyət onun idmana nə qədər ciddi yanaşdığını və fiziki hazırlıq səviyyəsinin yüksək olduğunu göstərir. Yarışlarda əldə etdiyi uğurlar onun həm də ruh yüksəkliyini artırır.

İdman T.Quliyevin döyüş və xidmət fəaliyyətinə də müsbət təsir göstərir. İdman sayəsində onun psixoloji dayanıqlığı güclənir, stresə qarşı müqaviməti artır və komandada fəaliyyət qabiliyyəti yüksəlir. Bu keyfiyyətlər onun ümumi döyüş hazırlığını daha da artırır və istənilən şəraitdə operativ hərəkət etməsinə imkan verir.

Gizir T.Quliyev dedi ki, fiziki hazırlığa xüsusi diqqət yetirmək hər bir hərbi qulluqçunun əsas vəzifəsidir. "İdman sayəsində həm fiziki güc, həm də psixoloji dayanıqlıq önəmlidir. Hər zaman öz üzərində çalışmaq və inkişaf etmək vacibdir. Bu, həm fərdi, həm də kollektiv uğura böyük təsir göstərir".

Əsgər İsmayıl Quluzadə bildirdi ki, fiziki hazırlıq hərbi xidmətin əsas tərkib hissəsidir. "Hər gün idmanla məşğul olmaq güc və dözümlülüyümüzü artırır. Fiziki güc və çeviklik hərbi qulluqçu üçün ən vacib keyfiyyətlərdən biridir".

Əsgər Nicat Məmmədov isə idmanın onun üçün həm peşəkar, həm də şəxsi inkişaf vasitəsi olduğunu qeyd etdi. "İdman sayəsində həm güclənir, həm də psixoloji hazırlığımızı möhkəmləndiririk. Sağlam həyat tərzi seçmək və idmanla məşğul olmaq mənim gündəlik vərdişimdir. Bir əsgər olaraq güclü olmaq üçün əzmlə çalışıram".

Əsgər Pərvin Hüseynzadə dedi ki, çeviklik və dözümlülük real döyüş şəraitində həyati əhəmiyyətə malikdir. "Hər gün müəyyən məşqlərlə özümü inkişaf etdirirəm. İdman tədbirləri mənim üçün həm sınaq, həm də motivasiya mənbəyidir. Hərbçi kimi məsuliyyətli vəzifəmi tam yerinə yetirmək üçün çalışıram. İdman mənim güc və ruh qaynağımdır".

Əsgər Seymur Hüseynli isə fikirlərini belə ifadə etdi: "Fiziki hazırlıq hərbi xidmətin ayrılmaz tərkib hissəsidir. Fiziki cəhətdən güclü olmaq döyüş hazırlığında çevik və dözümlü olmağımıza kömək edir. Eyni zamanda, idman bizdə iradə, intizam və məqsədyönlülük kimi müsbət keyfiyyətləri formalaşdırır. Sağlam bədəndə sağlam ruh olar. Bu da hər bir əsgərin Vətənə daha layiqli xidmət etməsinə zəmin yaradır".

Əsgər Fazil Babayev isə xidmət yoldaşının fikrinə əlavə olaraq vurğuladı ki, fiziki hazırlıq məşqləri onun öz bacarıqlarını inkişaf etdirmək üçün əla fürsətdir. İdman, eyni zamanda, psixoloji dayanıqlığımızı da artırır. Əsgər yoldaşlarıma nümunə olmaq üçün fiziki hazırlığıma xüsusi diqqət yetirirəm".

Azərbaycan Ordusunda gündəlik nizam qaydalarına uyğun olaraq keçirilən fiziki hazırlıq məşğələləri şəxsi heyətin döyüş qabiliyyətinin yüksəldilməsində həlledici amillərdən biridir. Fiziki hazırlığın inkişaf etdirilməsi hərbi qulluqçuların həm bədən, həm də ruh sağlamlığını gücləndirir. Azərbaycan Ordusunun möhkəm dayaqlarından biri şəxsi heyətin sağlam həyat tərzidir.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

## Peşəkar sürücü



Sürücülük ən gərəkli peşələrdən biridir. Artıq avtomobilsiz heç bir sahəni təsəvvür etmək mümkün deyil. Hərbi hissələrdə təminatların hamısı demək olar ki, avtomobillərlə çatdırılır. Bu səbəbdən də peşəkar sürücü hərbi hissədə xidmətin səviyyəsinin yüksəldilməsində gərəkli olur.

Hərbi hissədə zabit Məmmədağa Cahangirov bildirdi ki, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ramid Əhmədov peşəkar sürücülərdəndir. O, 12 ildir ki, sürücü kimi xidmət edir. Ortaboy, gülərüz hərbi qulluqçu həm də çevikliyi ilə diqqətimizi cəlb etdi.

Əsgər Ramid Elmar oğlu Əhmədov Gəncə şəhərində anadan olub. Müddətli həqiqi hərbi xidməti başa vurduqdan sonra sürücü olaraq müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirmək istəyib. Bu məqsədlə də lazım olan sənədlərini hazırda xidmət etdiyi hərbi hissəyə təqdim edib. Fiziki hazırlıqdan və nəzəri biliklərdən məqbul qiymət alaraq ordu sıralarına qəbul olunub.

Ramid dedi ki, hələ uşaq yaşlarından onun avtomobilə böyük marağı olub. Böyüyəndə də özünü başqa sahədə görmək istəməyib. Texnikaların hissələrini, sürücü üçün gərəkli olan idarəetməni, yol nişanlarını öyrənməyə can atıb. Daha sonra sürücülük məktəbinə gedib. Dövlət Yol Polisində imtahan verib, minik və yük maşınlarının idarə edilməsi üçün sürücülük vəsiqəsi alıb.

Ramid ordu sıralarında xidmətə başlayandan avtomobil parkında texnikaların təmirində sürücü yoldaşlarına kömək edib. O, bununla avtomobil haqqında daha mükəmməl praktiki biliklər qazanıb. Aprel döyüşlərində və İkinci Qarabağ müharibəsində Ramid döyüşçülərə silah-sursat və başqa təminatları vaxtında çatdırıb. Dəfələrlə idarə etdiyi avtomobillə təhlükəli anlarla üz-üzə qalıb. Amma qarşıya qoyulmuş tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib, təminatları vaxtında bölmələrə çatdırıb.

Tərtər, Ağdərə, Suqovuşan yaşayış məntəqələrinin düşməndən azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. Bacarıqlı və məsuliyyətli sürücü olduğu üçün rəhbərlik tərəfindən nümunəvi xidmətinə görə mükafatlandırılıb. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Ramid Əhmədov "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunub.

Əsgər Ramid Əhmədov sürücü kimi xidmətini davam etdirir. O, növbəti dəfə çıxışa hazırlaşır. Avtomobil parkında park növbətçisindən və texniki nəzarət xidmət rəisindən lazımi təlimat alır. O, bir azdan avtomobillə parkı tərk edərək xidməti vəzifəsini yerinə yetirməyə gedəcək...

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

*Əsgər dostluğu*

## Əsgər dostluğu Vətənin müqəddəs zərrələrindəndir

Cavidan Bəhramlı Bakı şəhərində anadan olub, orta təhsil alıb. Vətənin müqəddəsliyi haqqında bilikləri burada genişlənib, burada formalaşıb. Müəllimlərinin söhbətləri, məktəbdə keçirilən tədbirlər, oxuduğu kitablar bu prosesi daha da dönməzləşdirib.

İkinci Qarabağ müharibəsi başlayanda məktəbli idi. Sentyabrın 27-nin səhərini o da müharibə ovqatı ilə yaşadı, dərsdə müəllimləri müharibədən, döyüşlərdən, döyüşənlərdən danışırdılar, Azərbaycan Ordusunun qalibiyyətindən söz açırdılar. O da digər həmyaşıdları kimi, müəllimlərini qürurla dinləyirdi...

Rahil Əliyev Sumqayıtda həmyaşıdı Cavidan kimi 27 sentyabr gününü məktəbdə bu ovqatla yaşamışdı, onun da qüruru məcrasına sığmamışdı. Biri Bakıda, biri Sumqayıtda bu yaşlarında döyüşənlərimizin ruh qardaşıydı. İkisi də hər günün döyüşlərini yaddaşına köçürürdü, "Bu döyüşlərdə iştirak etmək taleyimizə qismət olmamışdı, düşüncələrimizə qismət olmuşdu...", - düşünmüşdü. Biri Bakıda, biri Sumqayıtda müəllimlərindən soruşmuşdular ki, döyüşlərdə iştirak edə bilərlərmi? Müəllimləri demişdilər ki, siz işğaldan azad edilmiş ərazilərimizdə xidmətinizlə qaliblərimizin davamçısı olacaqsınız. Bu ümidi təsəlli bilmişdilər.

Biri Bakıda, digəri Sumqayıtda hərbi xidmətə çağırılacağı yaşa tələsirdi. Bir-birilərini tanımadan...

Çağırışçı yaşına çatanda Cavidanı da, Rahili də hərbi xidmətə çağırdılar...

Eyni hərbi hissədə xidmətə başladılar, ikisi də Hərbi And içdi. İkisi də Hərbi Anda sədaqətlə xidmət edən nümunəvi əsgər kimi tanındı. Asudə vaxtların birində söhbət etmişdilər. İkinci Qarabağ müharibəsinin ilk günü haqqında danışmışdılar. Həmin gün bilmişdilər ki, onda hər ikisi də eyni hissləri yaşayıb və eyni hisslərdən söz açmışdılar. Bu, onların münasibətində ilkin yaxınlıq, yaxınlıq əsasında da doğmalıq yaradıbmış. Bu doğmalığı, əsgər dostluğunu indi ikisi də hərbi xidmətdən ömürlərinə düşən işıq adlandırır. "Mənə elə gəlir ki, hamının könül açdığı bir yaşıdı olur. Hərbi xidmətdə bu, əsgər dostluğu olur. Əsgər dostluğunu yaşatmaq xalqımızın mənəvi dəyərlərindəndir. Mənəvi dəyərləri yaşatmağı bacarmayan yaxşı vətəndaş ola bilməz..." (əsgər Rahil Əliyev), "Orta məktəbdə oxuyanda da dostlarım vardı. Onlarla da səmimi söhbətlərimiz olurdu, onda düşüncələrimiz hələ yeniyetməlik həddinin tələblərini aşa bilmirdi. Hərbi xidmətə gəldim, xidmətimin ilk günündən hiss etdim ki, əsgərin gücü həm də könlünə yaxın əsgərlə daha yaxın dost münasibətdədir. Bu dərk mənim düşüncələrimi nurlandırdı. Rahili qəlbimə, könlümə çox, lap çox həmdəm bilirəm. Mənə elə gəlir ki, o da mənim kimi düşünür..." (əsgər Cavidan Bəhramlı)...



Hərbi xidmətdə başlayan bu dostluq ömür dostluğu olacaq. Bu əminliyi Azərbaycan əsgərinin dövlətə, dövlətçiliyə, Hərbi Anda sədaqəti yaradır. Zamanında eyni hərbi hissədə xidmət edən əsgərlərin - ataların dostluğunu illər sonra onların oğullarının necə sədaqətlə davam etdirdiklərini də bilirik. Onların timsalında bir gerçəkliyi sabahlara da ad edə bilərik. Azərbaycan əsgəri üçün Vətən müqəddəsliyi var və əsgər dostluğu da bu müqəddəsliyin zərrələrindəndir...

Cavidan Bəhramlı ilə Rahil Əliyevin dostluğu həmişə yaşadılan dostluq olacaq...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Görkəmli şəxsiyyətlər*

# Tərəqqipərvər ziyalı - polkovnik Əbülfət ağa Şahtaxtinski

**(Əvvəli 1-ci səhifədə)**



Tanınmış ziyalı və hərbçi olan Nəcəfqulu ağa oğlu Əbülfət ağaya ilk təhsili evdə verib. Sonra isə Naxçıvan şəhərindəki rus məktəbində oxutdurub. 1871-ci ildə Nəcəfqulu ağa oğlu Əbülfət ağanı Tiflisə aparıb və təhsilini davam etdirmək üçün onu Tiflis Realnı gimnaziyasına qoyub. Əbülfət ağa 1877-ci ildə gimnaziyanı uğurla başa vurub, həmin ildə Peterburq Texnologiya İnstitutuna qəbul olub.

Azadlıq mücahidi olan Əbülfət ağa oxuduğu institutda tələbə hərəkatına qoşulub, tələbələri qadağan olunmuş toplantılara təhrik etdiyinə görə 1879-cu ilin dekabrında institutdan xaric edilib. Yaşadığı mənzilində aparılan axtarışlar zamanı məlum olub ki, o, həm də Moskva və Peterburqda təhsil alan qafqazlı tələbələrin yaratdıqları "İmdadiyyə" adlı gizli dərnəyin üzvüdür. Bu dərnək 1878-ci ildə Həsən bəy Zərdabinin və Nəcəf bəy Vəzirovun təşəbbüsü ilə yaradılmışdı.

3 mart 1878-ci ildə 20 yaşlı Əbülfət ağanın Nəcəf bəy Vəzirova yazdığı məktubdan: ""İmdadiyyə"nin əsas müddəalarının müzakirəsini təxirəsalınmaz vəzifəmizə çevirir. Müzakirə ona görə lazımdır ki, biz ölkənin müxtəlif yerlərinə yollanarkən bir məqsəd uğrunda hərəkət edə bilək. Biz öz məqsədimizə nail olmaq üçün bütün vasitələri nəzərdən keçirməliyik. Həmin məqsəd kifayət qədər aydın və dəqiq şəkildə müəyyənləşdirilməlidir. Məqsədimiz sakitliyimizi pozan vicdan əzabının burjua rahatlığı naminə dəf edilməsi deyil. Məqsədimiz pisliyin kökünü yerli-dibli kəsmək üçün mümkün qədər çox işlək əl hazırlamaqdır. Biz vasitə və vəsait axtarırıq, deməli, onda işçi əllər, ağırlığı öz üzərinə götürən qüvvələr tərbiyə etməliyik. Biz tərəqqipərvər adamlar kimi, nəzərlərimizi yalnız cəmiyyətin aşağı təbəqələrinə yönəltməliyik".

Bu məktub Rusiya İmperiya Təhlükəsizlik İdarəsinin əlinə keçir. Onlar məktubu monarx II Aleksandra təqdim edirlər. Çar isə belə bir dərkənar yazır: "Göstərilən şəxslərin üzərinə diqqət hökmən gücləndirməlidir". Bundan sonra cəza tədbiri olaraq Əbülfət ağa institutdan qovulur və ona Rusiyanın ali məktəblərində oxumaq qadağan edilir.

1879-cu ildə Əbülfət ağa Moskvaya gəlib və ekstern yolla Lazarev adına Şərq Dilləri İnstitutuna qəbul olaraq təhsil alıb. Lakin o, burada da diplom ala bilmir. Əbülfət ağa növbəti dəfə təhsil almaq üçün Almaniyaya gedib. 1880-ci ildə Heydelberq universitetində diplom işini müdafiə edərək, bakalavr dərəcəsini alıb.

Rusiyaya qayıtdıqdan sonra demokratik baxışlarına və monarxiyaya qarşı çıxışlarına görə onu heç bir işə götürməyirlər. Ona görə də Əbülfət ağa məcbur olub dördüncü dəfə ali təhsil almalı olur. O, hərbi sahə ilə daha çox maraqlandığı üçün 1881-ci ildə Peterburq Yunkerlər məktəbinə imtahan verərək qəbul olur və oranı əla qiymətlərlə bitirir.

8 avqust 1883-cü ildə "praporşuk" rütbəsi alaraq Semenovski Xilasedicilər Alayına xidmətə göndərilib. O, alayda bacarıqlı zabit kimi tanınıb. 14 noyabr 1883-cü ildə Xarici İşlər Nazirliyinin Asiya Departamentinin Təlim Şöbəsinin "Şərq dilləri üzrə Zabit kursu"na göndərilib. 30 avqust 1884-cü ildə "podporuçik" rütbəsi alıb. 28 avqust 1885-ci ildə "Şərq dilləri kursu"nda dinləyici kimi iştirak etmək üçün Baş Qərargaha göndərilib. Nümunəvi hərbçi olduğuna görə o, 30 avqust 1885-ci ildə "poruçik" rütbəsi ilə təltif edilib. 28 iyun 1886-cı ildə Qafqaz Hərbi Dairəsinin qərargahına ezam olunub. 3 noyabr 1886-cı ildə İrəvan quberniyasının qərarı ilə Aleksandropol dairə komandirinin böyük köməkçisi təyin edilib. 20 aprel 1887-ci ildə ona "ştabs-kapitan", 7 avqust 1889-cu ildə isə xidmətdə fərqləndiyinə görə "kapitan" rütbəsi verilib.

11 noyabr 1889-cu ildə Ərdahan Piyada Ehtiyat Alayına köçürülüb. 20 dekabr 1889-cu ildən alayın 2-ci bölüyünə komandirlik edib. 26 dekabr 1891-ci ildə Zabit Atıcılıq Məktəbinə kurs keçmək üçün ezam olunub. 31 avqust 1892-ci ildə Zabit Atıcılıq Məktəbinin kursunu bitirib.

26 fevral 1896-cı ildə ona "podpolkovnik" rütbəsi verilib və 77-ci Tenqin Piyada Alayına göndərilib. 1896-cı il mayın 7-dən alayın 3-cü taborunun müvəqqəti komandiri olub. 25 may 1896-cı ildə 4-cü taborun komandiri, 23 iyun 1902-ci ildə 1-ci taborun komandiri təyin edilib.

1904-cü il aprelin 16-da 20-ci Şərqi Sibir Atıcı Alayına xidmətə göndərilib. 4 iyul 1904-cü ildə yenidən 77-ci Tenqin Piyada Alayına qaytarılıb. 1904-cü il sentyabrın 20-də 259-cu Qori Ehtiyat Piyada Alayına göndərilib.

1904-cü il oktyabrın 19-da ailə vəziyyətinə görə hərbi geyim forması daşıma hüququ və təqaüdlə təmin edilərək xidmətdən azad edilib.

5 mart 1905-ci ildə yenidən xidmətə qayıdıb və 212-ci Baxçasaray Piyada Alayına təyin edilib. Alayla birlikdə Rus-Yapon müharibəsində iştirak edib. 1905-ci il iyunun 13-də 3-cü taborun komandiri təyin edilib.

1906-cı il yanvarın 4-də 259-cu Qori Ehtiyat Piyada Alayına göndərilib. 1906-cı il iyunun 4-dən alayın 1-ci taboruna komandirlik edib.

Xidməti borcunu ləyaqətlə yerinə yetirən Əbülfət ağa, həmçinin məşhur Port-Artur döyüşlərində də iştirak edib.

1909-cu il aprelin 29-da istehkamçı bacarıqlarını artırmaq üçün Aleksandropol düşərgəsindəki 1-ci Qafqaz İstehkamçı taboruna göndərilib. 1910-cu il martın 16-dan aprelin 21-dək isə Kutaisi şəhərinin komendantı vəzifəsini icra edib. 31 may 1910-cu ildən "polkovnik" rütbəsinə yüksəlib.

Əbülfət ağa Şahtaxtinski bir sıra Şərq dilləri ilə yanaşı, alman, fransız və ingilis dillərini də mükəmməl bilib. Ona görə də 1912-ci ildə Rusiyanın hərbi nümayəndəsi kimi İsveçrə ordusunun manevrlərini və döyüş imkanlarını müşahidə etmək üçün bu ölkəyə müşahidəçi kimi ezam olunub.

Arxiv materiallarından da məlum olur ki, Əbülfət ağa Şahtaxtinski Sankt-Peterburqda, Tiflisdə, İrəvanda, Ərdahanda, Gümrüdə, Bakıda, Kutaisidə, Qoridə, həmçinin İsveçrədə hərbi xidmətdə olub.

Polkovnik Əbülfət ağa Şahtaxtinskinin hərbi şücaətləri hökumət tərəfindən yüksək qiymətləndirilib. O, orduda əla xidmətinə görə 1892-ci ildə 3-cü dərəcəli "Müqəddəs Stanislav", 1900-cü ildə isə 3-cü dərəcəli "Müqəddəs Anna", 1906-cı ildə 2-ci dərəcəli "Müqəddəs Anna", 1907-ci ildə 2-ci dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif olunub. 1908-ci ildə onun orduda qüsursuz hərbi xidmətinin 25 ili tamam olub. Bu münasibətlə ona 4-cü dərəcəli "Müqəddəs Vladimir" ordeni verilib. 1909-cu ildə Şərqi Qafqazın fəthinin 50 illiyi xatirəsinə "Qafqaz Xaç"ı, "Poltava döyüşünün 200 illiyi xatirəsinə" medalı, 1913-cü ildə "1812-ci il Vətən müharibəsinin 100 illiyi xatirəsinə" medalı və "Romanovlar nəslinin hakimiyyətinin 300 illiyi xatirəsinə" medalı ilə təltif olunub.

Əbülfət ağa Rusiya çarının bir sıra medallarına da layiq görülüb. O, Rusiya çarı III Aleksandrın 1883-cü ildə tacqoyma mərasimində mühafizə qoşununda olduğundan İmperator Həzrətlərinin Müqəddəs Tacqoymasının tünd bürünc xatirə medalı, həmçinin III Aleksandrın fəaliyyəti ilə bağlı sinəyə taxılan, gümüşdən hazırlanmış medalla (Aleksandr lentli) da təltif edilib.

Bunlardan əlavə o, bir sıra xarici ölkələrin də yüksək hərbi mükafatlarının kavaleri olub. Belə ki, o, İranın 4-cü dərəcəli (1889), 3-cü dərəcəli (1901) və 2-ci dərəcəli (1903) "Şire-Xorşid" ordeni, Buxara Əmirinin 2-ci dərəcəli "Ucalan Ulduz" qızıl ordeni (1899), Fransanın "Yuxarı Reyn Sularında Xilasetmə Cəmiyyəti"nin qızıl medalı (1903) ilə mükafatlandırılıb.

Əbülfət ağa dünya şöhrətli alim-naşir Məhəmməd ağa Şahtaxtinskinin qızı Balabəyim xanımla ailəli olub. Məhəmməd ağa Şahtaxtinski həm də Əbülfət ağanın doğma əmisi oğlu olub. Əbülfət ağa ilə Balabəyim xanımın nikahından Qonçabəyim (31 mart 1885-?) adlı qızı, Sadıq ağa (3.08.1889-?), Qasım ağa (19.01.1894-?), Nəcəfqulu ağa (22.07.1898-16.11.1937) və Abbas ağa (13.03.1905-1975) adlı oğulları olub.

Polkovnik Əbülfət ağa Şahtaxtinski 1913-cü il martın 6-da Kutaisi şəhərində xəstəlik (ürək çatışmazlığı) səbəbindən vəfat edib. Martın 13-də cənazəsi doğma kəndi Şahtaxtıya gətirilərək burada dəfn edilib.

Əsilzadə nəslindən olan polkovnik Əbülfət ağa hərb sahəsi ilə yanaşı, həm ədəbi, həm də maarifçilik sahəsində də xalqımız üçün əvəzsiz xidmətlər göstərib. O, məşhur alman yazıçısı Y.V.Hötenin "Gənc Verterin iztirabları" əsərini alman dilindən Azərbaycan dilinə tərcümə edib.

Öz hərbi hünəri ilə tarixdə iz qoymuş, elmi ilə müasirlərini heyran edən polkovnik Əbülfət ağa Şahtaxtinski Vətəndən uzaqlarda yaşayıb işləsə də, nə ana dilini, nə də mənsub olduğu İslam dinini unutmamışdı. Bu görkəmli şəxsiyyətdən xalqımıza əvəzsiz bir hədiyyə də yadigar qalıb. Azərbaycan tarixi muzeyində 1877-ci ildə fransız dilində nəşr olunan "Quran" kitabı saxlanılır. Kitabın titul səhifəsinə "Əbülfət ağa Şahtaxtinski"nin şəxsi möhürü vurulub. Hətta Əbülfət ağanın öz dəsti-xətti ilə yazdığı avtoqraf da var.

Polkovnik Əbülfət ağa Şahtaxtinskinin vətənpərvərliyi, keçdiyi elmi və hərbi yolu gənclərimizə həmişə nümunədir.

Bəzi mənbələrdə Əbülfət ağanın oğlanlarından üçünün hərbçi olması barədə məlumatlar da var. Bu məlumatlara görə Sadıq ağa Şahtaxtinski Petroqradda təhsil alıb. 1918-ci ilin fevralında könüllülər dəstəsində Qırmızı Ordu sıralarına daxil olub. O, sovet ordusunun qərargah zabiti olub və komanda heyətinin idarə rəisi vəzifəsinədək yüksəlib.

Əbülfət ağanın digər oğlu Nəcəfqulu ağa Şahtaxtinski Tiflisdə hərbi kadet məktəbini, sonralar Sankt-Peterburqdakı Mixaylovsk Artilleriya məktəbini bitirib və 1918-ci ilədək çar ordusunda xidmət edib. 1918-ci ildə Azərbaycana gəlib və Azərbaycan Xalq Cümhuriyyəti ordusunda milli kadrların yetişdirilməsində yaxından iştirak edib. 1920-ci il aprelin 28-də Azərbaycanda Sovet hökuməti qurulduqdan sonra artilleriya polkunda qərargah rəisi olub. 1931-ci ildən başlayaraq "NKVD" tərəfindən təqib olunub, həbs edilərək sürgünə göndərilib. 1937-ci ilin dekabrında "troyka"nın (üçlüyün) qərarı ilə güllələnib.

Əbülfət ağanın kiçik oğlu Abbas ağa 1920-ci ilin əvvəllərində Kreml yanındakı hərbi kursantlar məktəbini bitirsə də, iqtisadiyyat sahəsində çalışıb.

**"Azərbaycan Ordusu"**

## "Prezident İlham Əliyevin BMT-dəki çıxışı bəşəriyyət üçün sülh, ədalət və tərəqqi formuludur"

Prezident İlham Əliyev sentyabrın 25-də Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı zamanı beynəlxalq ictimaiyyəti sülhə, ədalətə və tərəqqiyə səslədi, qlobal təhlükəsizliklə bağlı mühüm mesajlar verdi.

Bunu AZƏRTAC-a açıqlamasında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov bildirib.

Polkovnik qeyd edib ki, dövlətimizin başçısı daha təhlükəsiz dünya üçün atılması lazım olan addımlara diqqət çəkib: "Prezident İlham Əliyevin BMT kürsüsündəki çıxışı, bu çıxışda yer alan fikirlər bütün dünyanın bu günü və gələcəyi baxımından böyük əhəmiyyətə malikdir. Dövlətimizin başçısı faktiki olaraq, bu çıxışı ilə daha təhlükəsiz və ədalətli dünyanı necə, hansı şəkildə inşa etməyin formulunu təqdim etdi. Prezident bildirdi ki, belə bir dünya yaratmaq üçün öncə ikili standartlardan imtina olunmalı, ədalətin selektiv şəkildə tətbiqindən imtina edilməlidir. Çünki bu cür yanaşma insanların ədalətə olan inamına zərbə vurur, onlarda məyusluq doğurur".

Cəlil Xəlilov xatırladıb ki, Azərbaycan uzun müddət Ermənistanın işğalı ilə yanaşı, həm də ikili standartlardan, ədalətsizlikdən əziyyət çəkib. 30 ilə yaxın müddətdə qlobal güclər, dünyanın aparıcı ölkələri Azərbaycanın haqq işini əməli şəkildə dəstəkləməyib, təcavüzkarla təcavüzə məruz qalan arasında fərq qoymayıb. "Məhz bu baxımdan Azərbaycan ikili standartlara şahid olan, ədalətsizliklə üzləşən dövlət kimi ədalətli yanaşmanın nə qədər vacib olduğunu, bu məsələdə selektiv yanaşmaların haqsızlığa məruz qalan xalqlar tərəfindən necə böyük məyusluq və qəzəb doğurduğunu bilir. Buna görə də Prezident İlham Əliyev daha yaxşı və ədalətli dünya üçün ikili standartlardan imtinanın həyati əhəmiyyət kəsb etdiyini bir daha diqqətə çatdırdı", - deyə o diqqətə çatdırıb.

Polkovnik qeyd edib ki, dövlətimizin başçısının diqqət çəkdiyi amillərdən biri də sülh faktoru olub: "Prezidentimiz bəşəriyyətin firavanlığı və tərəqqisi baxımından sülh amilinin son dərəcə həyati önəm kəsb etdiyini vurğuladı. Bununla yanaşı, dövlətimizin başçısı qeyd etdi ki, sülh yalnız sözdə deyil, həm də əməldə olmalıdır. Çünki yalnız bu halda həqiqi sülhü təmin etmək, onun praktiki nəticələrindən faydalanmaq mümkündür. Hansı ki, Prezident İlham Əliyevin liderliyi ilə 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan regional sülh uğrunda ardıcıl səylər, böyük fədakarlıqlar sərgilədi. Bütün bu səylər avqustun 8-də Amerika Birləşmiş Ştatlarında Azərbaycanla Ermənistan arasında sülh mətninin paraqraflanması ilə nəticələndi. Prezident İlham Əliyev sülhə verdiyi dəstəyə görə ABŞ Prezidenti Donald Trampa bir daha təşəkkür etdi, onun əməyini yüksək qiymətləndirdiyini vurğuladı. Bir sözlə, Prezident İlham Əliyev BMT-dəki çıxışı ilə bəşəriyyətin inkişafına yön verdi, dünya dövlətlərinə bir növ gələcək fəaliyyətlə bağlı dəqiq, aydın yol xəritəsi təqdim etdi. Dövlətimizin başçısı öz "dəmir" məntiqi ilə sübut etdi ki, planetimizin sabahı dünya dövlətlərinin bir-birləri ilə sülh şəraitində yaşamasından, səmimi əməkdaşlığından asılıdır və Azərbaycan bundan sonra da bu cür səyləri əməli şəkildə dəstəkləməyə, bəşəriyyətin rifahına töhfə verməyə hazırdır".

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsi - qrup rəhbərinə kömək)

**Suallar:**

**1. Vətəni qorumaq şərəfdir.**

**2. Vətən müharibəsinin qəhrəmanlıq salnaməsi.**

**Mövzu:** Vətəni qorumaq şərəfdir. Vətən müharibəsinin qəhrəmanlıq salnaməsi.

### Vətəni qorumaq şərəfdir

Vətən ancaq üzərində gəzdiyimiz, yaşadığımız torpaq parçası deyil. Özünün bayrağı, müstəqilliyi, suverenliyi, milli dövlət himni, sərhədləri olan torpağa Vətən deyilir. Vətən azadlıqdır. Torpağın Vətən olması üçün düşmənlərlə mübarizə aparmaq, onun üzərində zəfər qazanmaq lazımdır. Vətən xalqın qorunması üçün vacib, müqəddəs dəyərlərdən biridir. Xalq yalnız öz Vətənini qorumaqla gələcəyinə təminat verə bilər. Vətənə olan sevgimiz bizi ucaldır. Vətənin müdafiəsi bizim üçün inanc, iman olmalıdır.

Vətən bir xalqın üzərində yaşadığı coğrafiyadır. Torpağı Vətən edən millətin onda yaşadığı tarix, onunla qurduğu mədəniyyət əlaqələridir. Vətən millətin doğulduğu, sığındığı və maddi-mənəvi varlığını davam etdirdiyi yerdir. Vətən millətin evi, millət də Vətəndə yaşayan ailədir. Vətən bizi qoruyan anadır. Çünki biz onun sayəsində inkişaf edir və yetkinləşirik. Vətən həyatda havasını udduğumuz yerdir. Vətən gözümüzün dünyada ilk gördüyü torpaqdır. Vətən bədənimizin bir parçasıdır. Vətən atalarımızın uyuduğu məzarlıq, övladlarımızın dünyaya gəldiyi yerdir. Vətəni sevmək sadəcə torpağı sevmək deyil, Vətənin daşını, havasını, suyunu sevmək deməkdir.

Vətənə bağlılıq onu sevmək, qorumaq və inkişaf etdirməkdir. Çünki nə Vətənsiz bir millət, nə də millətsiz bir Vətən ola bilər. Vətən əldən gedərsə, o millətin hər cür milli-mənəvi dəyərləri də yox olub gedər. Vətəni qorumaq dövləti və milləti qorumaq, Vətəni sevmək də dövləti və milləti sevməkdir. Vətənə bağlılıq milli-mənəvi dəyərlərə, ailəyə, bayrağa, dilə, tarixə, adət-ənənəyə, dinə, sənətə, milli birlik və bərabərliyə bağlılıqdır. Vətəni sevmək, onu düşmənlərə verməmək, hər cür hücum ehtimalına qarşı tədbirli olmaq və lazım olduğu zaman onun üçün canını vermək müqəddəs bir vəzifədir. Milli-mənəvi dəyərlərini, haqqı-həqiqəti, namusu, şan-şərəfi sevən bir insan Vətənini də mütləq sevməlidir. Çünki bunlar Vətənsiz yaşaya bilməz.

Vətənimiz Azərbaycana hücum varlığımıza, birlik-bərabərliyimizə, azadlığımıza edilən hücumdur. Buna görə Vətənimiz Azərbaycanın düşmənlərinə qarşı ayıq-sayıq olmaq, onlarla mübarizə etmək ən böyük və ümdə vəzifəmizdir. Bu vəzifəni yerinə yetirərkən ölmək, həyatdan şərəflə ayrılmaq, şəhid olub ən uca mərtəbələrə çatmaqdır, yaralanmaq isə şərəflə dönməkdir. Vətənimiz Azərbaycanı sevmək, təhlükə anında Vətənimizin imdadına yetişmək, lazım olduğunda canını sevə-sevə verə bilməkdir. Sülh zamanında onun abadlığına çalışmaq, maddi-mənəvi inkişaf və yüksəlməsini hədəf və məqsəd seçməkdir. Xeyirli olan işləri yaymaq, vətəndaşlara kömək etmək, Vətənin səadəti üçün səy göstərmək, möhkəmliyini və əmin-amanlığını təmin etməyə çalışmaqdır.

Ata-babalarımızdan əmanət olaraq aldığımız, üzərində xoşbəxt və firavan yaşadığımız, yer üzünün cənnəti olan bu gözəl Azərbaycanımızı onun üzərində atalarımızın qurduqları sivilizasiya və mədəniyyət xəzinələrini, dilimizi, mənəviyyatımızı qoruya bilmək, yaşatmaq və gələcək nəsillərə ötürmək üçün onu müdafiə etməyə hər an hazır olmalıyıq. Çünki Azərbaycan hər nə bahasına olursa-olsun, müdafiə etmək məcburiyyətində olduğumuz, şəhidlərimizin uğrunda can verib, qanlarıyla yazdığı, mənəviyyatı, dili, bayrağı, mədəniyyəti və əxlaqı bir olan millətimizin üzərində yaşadığı torpaq parçasıdır. Vətənimiz Azərbaycanı müdafiə etmək, insanın sinəsində doğulub boya-başa çatdığı, suyu və çörəyi ilə bəsləndiyi, havasını tənəffüs etdiyi, mənəviyyatına, millətinə, ismət və namusuna, haqlarına hücum edildiyi zaman malını, canını və hər şeyini fəda etməkdən çəkinməməkdir.

Azərbaycan strateji cəhətdən əlverişli mövqedə yerləşməklə yanaşı, təbii sərvətlər ehtiyatına sahibdir. Buna görə ölkəmizi ələ keçirməyə çalışan qüvvələr həmişə fürsət axtarırlar. Tarixin ayrı-ayrı dönəmlərində Azərbaycan həmişə yadellilərin hücumlarına məruz qalıb. Lakin torpaqlarının müdafiəsini hər şeydən üstün bilən atalarımız Vətənimiz Azərbaycanı canları bahasına qoruyub bizə əmanət ediblər. Verilən vədə əməl etmək lazımdır, bu, bizim dinimiz, inancımız, insanlığımız gərəyi üzərimizə yüklədiyimiz ən ali və müqəddəs vəzifə olmalıdır. Çünki min illərdir hakimiyyətimizi davam etdirdiyimiz bu torpaqları gələcəyə aparmaq lazımdır, onu başqa xalqların əsarəti altına atmaq insanlığa sığmaz. Heç bir halda Vətənin müdafiəsindən geri çəkilməməliyik, ən çətin anlarda belə bayrağımızı yüksəkliklərə qaldırmalı, ölkəmizin adının ən yaxşılar sırasında çəkilməsi naminə ən ağır şəraitlərdə belə çalışmaqdan geri durmamalıyıq. Hər birimiz Vətənimiz Azərbaycanın könüllü əsgərləriyik. Biz Vətənimiz Azərbaycana xidmət borcunu bu torpağa olan mənəvi borc kimi verməliyik. Biz həyatımızın sonuna kimi Vətənimiz Azərbaycana borcluyuq. Azərbaycan bizim qürur yerimizdir. Öz Vətənini düşünən hər bir insan üçün vətənpərvərlik bir ideologiya olmalıdır.

Əcdadlarımızın mirasına sahib çıxaraq 44 günlük Vətən müharibəsində bütün dünyaya birliyimizi, Vətənimiz Azərbaycana olan sevgimizi göstərdik. Vətən sevgisindən mayalanmış region üçün təhlükə mənbəyi olmuş Qarabağ münaqişəsinin uğurla və ədalətlə həll edilməsi cahana Azərbaycan adlı məmləkəti tanıtdı.

Ulu Öndər Heydər Əliyev deyirdi: "...Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi də yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tarixi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik, sadəcə, orduda xidmət deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik...". Bəli, Azərbaycanın gələcək varlığı naminə nəinki gənclər, hər birimiz vətənpərvər olmalıyıq. Çünki borcumuzun olduğu bu Vətəni qorumaq bizim ən ümdə amalımızdır.

### Vətən müharibəsinin qəhrəmanlıq salnaməsi

Azərbaycan türkü olaraq biz əsrlərlə ermənilərin təcavüzünə məruz qalmışıq. XX əsrin sonlarında bir zamanlar ermənilərin yaşaması üçün köçürüldükləri əzəli Azərbaycan torpağı olan Qarabağa sahib olmaq üçün bu mənfurlar ölkəmizə qarşı hərbi təcavüzə başlamış, etnik təmizləmə siyasəti apararaq soyqırımlar törətmiş, dinc əhalini qətlə yetirmiş, bir milyondan artıq azərbaycanlını öz doğma yurd-yuvasından didərgin salmışdırlar. Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il kağız üzərində qalmış və icra olunmamışdır.

2016-cı ilin əvvəlində Ermənistan silahlı birləşmələri hərbi təxribata əl ataraq, aprelin 2-də qoşunların təmas xətti boyunca əhalinin sıx məskunlaşdığı əraziləri, o cümlədən məktəbləri, xəstəxanaları və ibadət yerlərini ağır silahlardan atəşə tutdu. Azərbaycan Ordusunun əks-həmləsi nəticəsində düşmənə layiqli cavab verilərək Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altında olan ərazilərinin müəyyən hissəsi işğaldan azad edildi. Bu döyüşlərdə Şükür Həmidov, Murad Mirzəyev, Samid İmanov kimi xalqımızın igid övladlarının göstərdikləri qəhrəmanlıqları və şücaətləri Azərbaycan xalqının heç vaxt erməni işğalı ilə barışmayacağını göstərdi.

2020-ci ilin iyulunda Tovuz rayonu istiqamətində baş verən hərbi əməliyyatlar isə ölkəmizin taleyində ciddi dönüş nöqtəsi oldu. Vətən sevgisi döyüş meydanında generalı əsgərdən ayırmadı. "Qaraqaya"da şəhid olan general-mayor Polad Həşimovun cəsarəti, vətənpərvərliyi, qorxmazlığı və ən nəhayət, düşmənə sonsuz nifrəti 27 sentyabrda başlanacaq Vətən müharibəsinin qəhrəmanlıq simvoluna çevrildi. Onun vəzifə borcunu qəhrəmanlıqla yerinə yetirərək şəhadətə qovuşması Azərbaycan Ordusunun Vətən müharibəsində rəşadət göstərməsinə gətirib çıxardı.

2020-ci ilin iyul, avqust və sentyabr aylarında ardıcıl baş verən təxribatlar nəticəsində yenidən atəşkəs pozuldu, mülki əhaliyə kəşfiyyat-diversiya qrupları tərəfindən hücumlar edildi. 2020-ci ilin 27 sentyabrında Azərbaycanın şəhər və kəndlərinin ağır artilleriyadan atəşə tutulması Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında uğurlu əks-hücum əməliyyatının başlamasına səbəb oldu. Ölümdən zərrə qədər qorxmayaraq Ermənistanın işğalına məruz qalmış ərazilərimizi geri qaytarmaq üçün canlarını fəda etməyə belə razı olduqlarını göstərən bu yurdun minlərlə igid övladı, Xocalı soyqırımı qurbanlarının, mənfur düşməni belə tanımayan Zəhranın, Aysunun, Mədinənin və neçə belə körpənin intiqamının alınması üçün könüllü cəbhəyə yazıldı. 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabr ayında Qarabağ iqtisadi rayonunda antiterror əməliyyatı Ermənistan silahlı qüvvələrinin qalıqlarının, qeyri-qanuni erməni silahlı dəstələrinin və Qarabağ bölgəsində formalaşan terror qruplaşmalarının darmadağın edilməsi və Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı. Torpaqlarımız qəhrəman hərbi qulluqçularımızın, şəhidlərimizin qanı və canı bahasına azad edildi. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi Zəfər çaldı. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında hərbi qulluqçularımızın mərdliyi, qəhrəmanlığı, fədakarlığı sayəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

Hərbi qulluqçularımız öz yaralılarını və şəhidlərini döyüş meydanında buraxmadı. Onlar çətin relyefə baxmayaraq, qayalardan dırmaşaraq Şuşada möhkəmlənmiş 300-dən çox erməni hərbi hissələrinin canlı qüvvəsini və döyüş texnikalarını sıradan çıxartdı. Təbii coğrafi istehkam olan Şuşa şəhərinin zərər vurulmadan atıcı silahlarla azad edilməsi dünya tarixində görünməmiş döyüş əməliyyatlarından biridir. Şuşa şəhərinin düşmən əsarətindən azad edilməsi, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi kapitulyasiyası ilə nəticələndi. Bu məğlubiyyət Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi. Qəhrəman Azərbaycan əsgərləri kiçik qüvvə ilə Zəngilanı azad etdi, Cəbrayılda erməni zabitləri Azərbaycan Ordusunun mübarizə əzminin qarşısında aciz qalaraq öz əsgərlərinə döyüşməyin mənasız olduğunu deyərək qaçdılar. Hadrutda 30 nəfərlik xüsusi təyinatlı dəstəmiz 1500 nəfər erməni muzdlusunu qaçmağa məcbur etdi.

Biz Vətən müharibəsində oğullarımızın qəhrəman ruhunu gördük. Onların qəhrəmanlıqları dillərə dastan oldu, silinməz mürəkkəblə tarixə yazıldı. Çiynində yaralı əsgəri daşıya-daşıya, qarboran demədən sadəcə irəliyə addımlayan, irəliyə köklənən, öz qanını Vətən torpağı Qarabağda axıdan bu igidlər öz şücaəti, dönməzliyi, müzəfərliyi bizə bu qələbəni yaşatdı. Məhz onlar Əlif Hacıyevin, Albert Aqarunovun, Çingiz Mustafayevin, Mübariz İbrahimovun, Fərid Əhmədovun, Polad Həşimovun, İlqar Mirzəyevin, Şükür Həmidovun, Çingiz Qurbanovun, Ramiz Cəfərovun, Orxan Əkbərovun, Anar Əliyevin, Amid Heydərovun, Vüqar Ağayevin, Cəbrayıl Dövlətzadənin ölmədiyini, bizim ordumuzda neçə belə Mübarizlərin, Fəridlərin olduğunu bütün dünyaya sübut etdilər. Məhz onlar kimi minlərlə igid bir əlində silah, bir əlində bayraq öz sinəsini düşmənə sipər edərək, öz nəfəslərini kəsərək Azərbaycanımıza - Qarabağımıza nəfəs verdilər. Onlara bu dərəcədə böyük cəsarəti, qorxmazlığı verən Vətən eşqi olub. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin dediyi kimi: "Bizim ordumuzda minlərlə, on minlərlə Mübariz kimi, Fərid kimi Vətən uğrunda canından keçməyə hazır olan qəhrəmanlarımız var!".

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı hərbi əməliyyatlarda iştirak edərək, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrin 83 nəfər hərbi qulluqçusuna (onlardan 39 nəfər ölümündən sonra) Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmişdir.

Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün hərbi qulluqçularımıza, şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 27 sentyabrın - Vətən müharibəsinin başladığı günün Azərbaycan Respublikasında "Anım Günü" kimi qeyd olunması ilə bağlı Sərəncam imzalamışdır. Bu addım şəhid ruhlarına, şəhidlərin doğmalarına ali ehtiramın göstəricisidir.

Ulu Öndər Heydər Əliyev Azərbaycan Ordusunu yaratdı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev isə onu dünyanın ən güclüləri sırasına çıxardı. Bu ordu qarşısında duran tarixi missiyanı, yaradıcısı olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin arzusunu və vəsiyyətini yerinə yetirdi. Odur ki, bu gün Ümummilli Lider Heydər Əliyevin ruhu rahatdır və bu qələbə həm də Ulu Öndərin ideyalarının təntənəsidir. Azərbaycan xalqı Zəfər çalaraq şanlı qəhrəmanlıq salnaməsi yazdı.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

Maraq dünyamız

# "12 həvaris"

***Dünya tarixində cəmi bir dəfə kor insanlar hərbi xidmətə çağırılıb. İkinci Dünya müharibəsi zamanı Leninqrad şəhəri 872 gün düşmən mühasirəsində qalıb. Düşmən mütəmadi olaraq şəhərə havadan hücumlar edirdi. Bu, müharibənin ən faciəvi hadisələrindən biri idi. Həmin müddət ərzində faşistlər şəhərə təxminən 107000 aviasiya bombası və 150000 mərmi atıblar.***



Təxminən elə bu dövrlərdə düşmən təyyarələrinin yaxınlaşmasını eşitmək üçün xüsusi səs detektorları tətbiq olunmağa başlandı. Bu detektorun iş prinsipi böyük borular vasitəsilə yaxınlaşmaqda olan düşmən təyyarələrinin səsinin qəbul edilməsi və dəqiqləşdirilməsi idi. Bu sistemin effektivliyini səs operatoru təyin etməli idi. Real şəraitdə sınaqlardan sonra müəyyən olundu ki, operator çox güclü eşitmə qabiliyyətinə malik olmalıdı.





Sıravi əsgər və zabitlərdən təyin olunan səs operatorları bu işdə o qədər də yaxşı nəticələr göstərmirdilər. Həmin vaxtda bir nəfər şəxs belə bir təklif irəli sürür: adi insanlardan qat-qat daha həssas eşitmə qabiliyyətinə malik olan kor insanları bu işə cəlb etmək.

Bu məqsədlə şəhərdə yaşayan 300 nəfər gözdən əlil vətəndaşı toplayırlar. Onların arasından 12 nəfər ən həssas və ən dözümlüsü seçilir. Müvafiq təlimlər keçdikdən sonra onlar xidmətə başlayırlar.

Bu iş çox çətin bir iş idi. Detektorların oturacağında saatlarla hərəkətsiz vəziyyətdə oturub səmanı dinləmək lazım idi. Lakin güclü eşitmə qabiliyyətinə malik olan bu qeyri-adi əsgərlər bu işin öhdəsindən çox uğurla gəldilər. Onlar yaxınlaşan düşmən təyyarələrinin səsini eşidən kimi dərhal müvafiq bölməyə məlumat ötürürdülər. Bir müddət sonra onlar hətta öz təyyarələrinin səsini düşmən təyyarələrinin səsindən belə ayırd edə bilirdilər. Üstəlik, bu bəzən aramsız artilleriya atəşinin yaratdığı



səs-küyün içərisində edilirdi. Bir neçə ay ərzində "dinləyicilər" nəinki düşmən təyyarələrini aşkar edirdilər, həm təyyarənin uçduğu hündürlüyü, həm də məsafəsini və hətta təyyarənin tipini belə müəyyənləşdirə bilirdilər. Düşmən bombardmançıları şəhərə çatanda artıq hava hücumundan müdafiə vasitələri atəşə hazır olurdular.

Göstərdikləri şücaətə görə bu gözdən əlil əsgərləri Leninqrad səmasının "12 həvaris"i adlandırırdılar. Onların xatirəsinə Sankt-Peterburqda abidə də ucaldılıb.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

### Media: İspan pilotlar Türkiyənin HÜRJET qırıcılarında təlim keçəcəklər




İspaniya hökumətinin qərarından sonra İspaniya Hərbi Hava Qüvvələrinin uçuş təlimi proqramı Amerika istehsalı olan F-5M çoxməqsədli qırıcılarını Türkiyənin TUSAŞ şirkətinin istehsalı olan HÜRJET təlim təyyarələri ilə əvəz edəcək.

Türkiyənin "Star" qəzeti xəbər verir ki, 2025-ci ilin oktyabrın sonunadək 30 ədəd HÜRJET təyyarəsi üçün sifarişin verilməsi planlaşdırılır.

Sövdələşmə Madridin əlavə olaraq Türkiyə istehsalı olan 15 təyyarə alması imkanını da ehtiva edir.

Qəzet qeyd edir ki, HÜRJET təyyarələrinin İspaniyaya tədarükü 2028-ci ildə başlayacaq.

TUSAŞ daha əvvəl HÜRJET seriyalı ilk partiyasının 2027-ci ildə Türkiyə Hərbi Hava Qüvvələrinə təhvil veriləcəyini bildirmişdi.

### Bolqarıstanda hərbi-nəqliyyat aviasiyası üzrə beynəlxalq təlimlər davam edir



Bolqarıstanın "Bezmer" aviabazasında "European Spartan Exercise 2025" adlı beynəlxalq hərbi-nəqliyyat təlimlərinə start verilib.

Təlimlərdə Bolqarıstan, İtaliya, İspaniya, Yunanıstan və Litvanın Hərbi Hava Qüvvələrinin ekipajları iştirak edir. Proqram çərçivəsində taktiki eniş, hündürlükdə uçuş, desant əməliyyatları və tibbi evakuasiya üzrə tapşırıqlar icra olunacaq. Təlimlər oktyabrın 3-dək davam edəcək.

### Fransa NATO-nun təlimlərində iştirak etmək üçün Rumıniyaya 2,4 min hərbçi göndərir



Rumıniya Müdafiə Nazirliyi məlumat yayıb ki, Fransadan olan 2400 hərbçi ölkəyə göndəriləcək. Onlar NATO-nun "Dacian Fall 2025" adlı genişmiqyaslı hərbi təlimlərində iştirak edəcəklər.

Nazirliyin açıqlamasında qeyd olunur ki, fransız kontingenti, Çinku bölgəsində yerləşən NATO döyüş qrupuna əlavə olaraq, bu gündən etibarən Djurdju və Vama-Veke sərhəd-keçid məntəqələrindən Rumıniyaya daxil olur.

Təlimlər 20 oktyabr - 13 noyabr tarixlərində Çinku, Smırdan, Kapu-Midiya, Babadaq, Boqate, Alba-Yuliya, Hanu-Konaki, Cermate və Kırçişoara poliqonlarında keçiriləcək.

Ümumilikdə, təlimlərə 5 min hərbçi və 1200 hərbi texnika cəlb olunacaq. Qoşunlar Belçika, Bolqarıstan, İtaliya, Lüksemburq, Şimali Makedoniya, Polşa, Portuqaliya, Rumıniya, İspaniya və Fransanı təmsil edəcək. Təlimlər Rumıniya ilə yanaşı, Bolqarıstan ərazisində də aparılacaq.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

### Azərbaycanın stolüstü tennis millisi MDB Oyunlarını 9 medalla başa vurub



Azərbaycanın stolüstü tennis millisi III MDB Oyunlarında növbəti medallarını qazanıb.

Adil Əhmədzadə və Mərziyyə Nurmətova fərdi yarışların finalında müvafiq olaraq, Yevgeni Vasikov və Zlata Terekova (hər ikisi Rusiya) ilə qarşılaşıblar.

Rəqiblərinə hər üç setdə uduzan idmançılarımız gümüş mükafata yiyələniblər.

Bununla da stolüstü tennis yarışları başa çatıb. Azərbaycan millisi oyunları 6-sı gümüş, 3-ü bürünc olmaqla ümumilikdə 9 medalla bitiriblər.

Qeyd edək ki, 13 ölkədən ümumilikdə 1624 idmançının iştirak etdiyi III MDB Oyunlarına oktyabrın 8-də yekun vurulacaq.

### Açıq Avropa Turniri: Azərbaycanın 4 cüdoçusu fəxri kürsüyə qalxıb



Çexiyanın paytaxtı Praqada cüdo üzrə Açıq Avropa Turniri start götürüb.

İlk yarış günündə 4 cüdoçu fəxri kürsüyə qalxıb.

66 kiloqram çəki dərəcəsi Azərbaycan finalı ilə yadda qalıb. İslam Rəhimov qızıl, Nazir Talıbov isə gümüş medala yiyələnib. 60 kiloqram çəkidəki təmsilçilərimiz Hüseyn Allahyarov və Murad Muradlı üçüncü yeri tutaraq bürünc medala layiq görülüb.

Turniri 1 qızıl, 1 gümüş və 2 bürünc medalla tamamlayan Azərbaycan ümumi komanda hesabında ikinci, kişilərin mübarizəsində birinci pillədə qərarlaşıb.

### III MDB Oyunları: Azərbaycanın sambo komandası yarışı 8 medalla başa vurub



Azərbaycanın ilk dəfə ev sahibliyi etdiyi III MDB Oyunlarında sambo yarışları başa çatıb.

Yarışlar Göygöl Olimpiya İdman Kompleksində təşkil olunub. Səkkiz idmançımız fəxri kürsüyə yüksəlib.

Azərbaycan təmsilçilərindən Abdullətif Musayev (53 kq), Nihad Rəhimov (64 kq) qızıl, Əbubəkir Hüseynov (98 kq), Rəsul Səmədli (+98 kq), Rüstəm Qasımzadə (58 kiloqram) gümüş, Sadiq Nadirov (79 kiloqram), Mikayıl Əmirov (71 kq ) və Xəzər Əmrahlı (88 kq) isə bürünc medal qazanıblar.

**AZƏRTAC-ın materialları əsasında**

Əliyev İlham Nadir oğluna verilmiş MV № 058195 nömrəli, Həsənov Elşən Elşad oğluna verilmiş MV № 120999 nömrəli, Novruzov Fərrux Fəzail oğluna verilmiş MV № 138562 nömrəli, Süleymanov Maarif Arif oğluna verilmiş MV № 098939 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant
Əli ABIYEV

Lisenziya № 361
Sifariş № 507
Nüsxə 3630